# Moda və həyat tərzinin qarşılıqlı əlaqəsinin psixoloji xüsusiyyətləri

**Diyanə İbrahimova**
*Bakı Dövlət Universitetinin dissertantı*
**E-mail:** Diyane_huseynova@mail.ru

**Rəyçilər:** psixol.ü.f.d. M.H. Mustafayev,
psixol.ü.f.d. M.N. Eyyubova

**Açar sözlər:** moda psixologiyası, həyat tərzi, sağlam həyat tərzi, özünüqoruyan davranış, dəyərlər

**Ключевые слова:** психология моды, образ жизни, здоровый образ жизни, самосохранительное поведение, ценность

**Key words:** fashion psychology, way of life, healthy way of life, preventive behavior, value

Həyat tərzi sosial-psixoloji fenomen kimi müxtəlif aspektlərdən tədqiq olunur. Lakin, bu günə qədər həyat tərzinin mahiyyəti kifayət qədər öyrənilməmişdir. Sosial-psixoloji ədəbiyyatlarda bəzən bir-birinə zidd olan bir neçə yanaşmaya rast gəlmək olar. Bu ziddiyyətin səbəblərindən biri də həyat tərzinin mövqeyidir.

Həyat tərzi (latınca modus vivendi) – xüsusi tarixi, sosial-iqtisadi əlaqələrə xas olan, insanın davranış, ünsiyyət, düşüncə xüsusiyyətlərini xarakterizə edən fərdi və kollektiv fəaliyyət formalarıdır. Həyat tərzi – fəaliyyət, maraqlar, fikirlərdə təzahür edən insanın dünyada mövcud olma formasıdır. Onun əsas parametrləri - əmək gündəlik həyat, insanların ictimai-siyasi və mədəni fəaliyyəti, habelə müxtəlif davranış vərdişləri və təzahürlərdir. İnsanın həyat tərzinin əsas amili sağlamlıqdır. Akademik T.P.Lisiçın professor İ.V.Bestujeva-Ladı və d. həyat tərzi haqqında təsnifatından bəhrələnərək həyat tərzində 4 əsas kateqoriyanı fərqləndirir: “iqtisadi - “həyat səviyyəsi”, sosioji – “həyat keyfiyyəti”, sosial – psixoloji – “həyat stili” və sosial – iqtisadi –“həyat quruluşu” [1, s.167].

Həyat səviyyəsi iqtisadi kateqoriyaya aiddir və daha yüksək səviyyədə rifahı nəzərdə tutur. Bura istehsal fəaliyyəti (iş) daxildir. Həyat stili – sosial – psixoloji kateqoriyadır. O, əsasən özündə gündəlik həyata yönəlmiş, fərdi və ya qrup davranış xüsusiyyətlərini əks etdirərək, davranışın xarici normaları ilə qiymətləndirilir: iş və asudə vaxtın təşkili; işdən əlavə məşğuliyyət, həyat quruluşu; davranış manevrləri; zövq, dəyər seçimləri və s. Həyat keyfiyyətləri – sosioloji kateqoriyadır. Y.P.Lisiçınanın fikrincə, bu sosial fəaliyyət sferası kimi intellektual fəaliyyətə daxil ola bilər. Həyat quruluşu - insan həyatını və mədəniyyətini əhatə edən sosial-iqtisadi kateqoriyadır. Burada onun tibbi, fiziki aktivlik (idman və fiziki mədəniyyət) kimi komponentlərini qeyd etmək olar. Həyat tərzinin komponentlərinin bütövlüyünü təhlil edərək, onun strukturunda ilk olaraq insan sağlamlığı ilə əlaqəni ifadə edən birləşmələr var.

Hal-hazırda həyat tərzinin insan sağlamlığı ilə əlaqələndirildiyi yanaşma olduqca aktualdır. Modanın həyat tərzi amili kimi qiymətləndirilməsi, eləcə də modanın sağlam həyat tərzinə təsiri mexanizminin üzə çıxarılması ilk növbədə bu anlayışın mahiyyətini öyrənməyi tələb edir. Burada əsas fikir modanın özünü həyat fəaliyyətinin ictimai tənzimlənmə mexanizmi kimi əks etdirməsi və sağlam həyat tərzinin həyat fəaliyyətinin üsulu olmasıdır. Modanın

universal xarakterini nəzərə alaraq onun sağlam həyat tərzinin bütün aspektlərinə kompleks təsir imkanları müəyyən edilir, yəni həm fiziki, həm də zehni və mənəvi sağlamlığının formalaşmasında məsuliyyət daşıyır. Bundan əlavə bu, sağlam həyat tərzinin formalaşmasını prosesini 2 tərəfli həyata keçirməyə imkan verir - təkcə risk faktorlarının aradan qaldırılması ilə deyil, həm də konstruktiv faktorların aktivləşməsinə imkan verir [2, 198].

İnsanın həyat tərzi, buna uyğun olaraq davraşı tələbatlar sistemi ilə müəyyən olunur. Əgər insanın davranışı tələbatların təmin olunmasını təmin edirsə, bu zaman o, zamanla ictimai mübarizədə möhkəmlənir və sosial dəyişikliklərə münasibətdə davamlı xarakter daşımağa başlayır. Məqsədlərdə ifadə olunarkən, insanın tələbatları konkret həyat tərzində öz əksini tapır. Modaya olan tələbat onun əsasını təşkil edən yenilik və təqlid tələbatları ilə həyata keçirilir. Təqlid təcrübəsi, həmçinin yenilik arzusu, müasir cəmiyyətdə geniş yayılmışdır. M.Bayuoter haqlı olaraq qeyd edir ki, təqlidçilər uğurlu bir aktyorun fəaliyyətinin elementlərini təkrar edirlər. E.V.Nesterenkonun fikrincə: "dəbli davranış, dəbli standart daşıyıcıları cəmiyyət tərəfindən uğurlu aktyor kimi qiymətləndirilir və onun davranışı, ideyaları, həyat tərzi təqlid üçün bir nümunədir". Məqsədlərlə ifadə olunarkən, insanın tələbatları konkret həyat tərzində ifadə tapır. Modanın strukturu haqqında A.B.Qofmanın fikirlərinə əsaslanaraq sağlam həyat tərzini moda obyekti kimi, sağlamlığı isə öz növbəsində moda obyekti vasitəsilə əldə olunan moda standartı kimi müəyyən etmək olar. Sözü gedən proses, moda iştirakçılarının davranışında özünü bu şəkildə göstərir.

Hələ V.Zombart modanın utilitarlıq nəzəriyyəsinə müraciət edərək yazırdı: "...istehlakçının məqsədi dəyişdirildiyi kimi əhəmiyyətlilik və gözəlliyin də qiymətləndirilməsi dəyişir... obyekt nə qədər çox əhəmiyyətsizdirsə, modaya bir o qədər çox tabe olur". Beləliklə, V.Zombart istifadə olunmayan moda obyektlərinin olmasını nəzərdə tutaraq modanı antiutilat hadisə kimi qiymətləndirir.

Modanın əhəmiyyətlilik prizmasından təhlili olduqca vacibdir, çünki modanın qeyri–utilitar nəzəriyyəsi insan üçün əhəmiyyətli olan komponent – sağlamlıqla bağlıdır. Dəb və əhəmiyyətlilik arasındakı konfliktin nəticəsi bu və ya digər moda standartları tərəfindən yaradılan müxtəlif xəstəliklərdir. Məsələyə "əhəmiyyətlilik – dəblilik" prizmasından baxmaq insan fəaliyyətinin "əhəmiyyətli – zərərli" kriteriyaları arasında fərqə yönəlməsi ilə bağlıdır. "Əhəmiyyətlilik" və "zərərlilik" kateqoriyaları insanın həyatının özünüqoruma və özünəzərərvermə tərəflərini əks etdirir. Bundan əlavə, sözü gedən nisbətlərin nəzərdən keçirilməsi "dəblilik – zərərlilik" nisbətinə diqqət yetirmək üçün əsas meyar ola bilər. Qeyd etmək lazımdır ki, modanın və sağlamlıq problemləri çoxdan nəzərdən keçirilmiş problemlərdir. A.Smitin işlərində moda standartlarının insan sağlamlığına təsiri haqda fikirlərə rast gəlmək mümkündür. Alim "Mənəvi hisslər kitabında" amerikalı vəhşilərin uşaqların başlarına kvadrat forma vermək üçün dörd lövhə ilə başlarını necə sıxdıqlarını bir nümunə verir. Bu məsələ eyni zamanda dəbli geyimlərin nümunəsində də aydın şəkildə təsvir edilə bilər. Hal–hazırki dövrdə modanın sosial əhəmiyyətinin dəyişilməsi sayəsində onun bir çox standartları sağlam həyat tərzi ilə ziddiyyət təşkil edir. Burada çox sayda misal çəkmək olar: günəşlənmə, siqaret çəkmək və s.

Demək olar ki, bu gün sağlam həyat tərzi ilə moda arasındakı mübarizədə moda üstün mövqe tutur. Sağlam həyat tərzinin formalaşması və inkişafı prosesində modanın əhəmiyyətini vurğulayan bir çox tədqiqatlar vardır: "Zərərli vərdişlərin və müxtəlif xəstəliklərin profilaktikası nəticəsində sağlam olmaq dəb halını alaraq daha çox insanlar idmana cəlb olunur. Sağlamlıq sağlam inkişaf edən cəmiyyəti xarakterizə edən bir sosial normaya çevrilir". Belə ki, bu məsələyə həsr olunmuş tədqiqatların olmasına baxmayaraq

modanın sağlam həyat tərzi amili kimi tədqiqi, modanın formalaşma və inkişaf prosesində obyektiv qiymətləndirilməsi, bu konsepsiyaların əlaqəsi hələ də ətraflı öyrənilməmişdir. Psixologiyada hələ də modanın sağlam həyat tərzinə təsiri mexanizmləri öyrənilməmiş və sosial-psixoloji ədəbiyyatlarda bu problemə demək olar ki, çox az rast gəlmək mümkündür. Y.P.Lisiçına və A.V.Saxnonun işlərində "KİV, mənəvi və iqtisadi təbliqlərin müxtəlif formalarından fəal şəkildə istifadə edərək sağlamlıq modası yaratmaq olar" fikrinə rast gəlmək olar [3, s.366].

L.Q.Matros hesab edir ki, cəmiyyətin həyatına daha çox nüfuz edən moda sağlamlıq və sağlam həyat tərzinə az təsir etmişdir: "Fərdi və ictimai təbliğ mexanizmləri ilə sağlam həyat tərzinin bir-biri ilə qarşılıqlı əlaqəsinin bir çox problemləri həll edə bilməsinə baxmayaraq, bu fenomen cəmiyyətin sağlam həyat tərzi standartlarını inkişaf etdirmək üçün az istifadə edilir. Bu vəziyyətdə "moda"nın özünün məzmunu onun insanın mənəvi və fiziki sağlamlığına təsirinin hərtərəfli qiymətləndirilməsinə əsaslanmalıdır. Bu gün kütləvi mədəniyyətin bir çox elementinin insan sağlamlığına və ümumilikdə onun inkişafına zərər verdiyini göstərir".

Modanın sağlam həyat tərzinin formalaşması prosesində rolunu A.B.Mednikov da xüsusilə qeyd edir. Haqlı olaraq o, öz fikirlərində qeyd edir ki, moda sağlam həyat tərzi ilə bağlı dövlət və fərdi proqramların həyata keçirilməsində böyük əhəmiyyət kəsb edir. Müəllif sağlam həyat tərzi modanın müəyyənləşdirməsi prosesinin mahiyyətinin dəqiqləşdirilməməsinin və tərifinin olmadığını göstərməsinə baxmayaraq, bu problemdə ən vacib məqamları və nümunələri ortaya çıxarmağa müvəffəq olur [4, 275].

Modanın sağlam həyat tərzini tənzimləyən sosial mexanizmdə rolu haqqında təsəvvürlərə modanın əsas nəzəriyyələrində rast gəlmək mümkündür. Həqiqətən, modanın sağlam həyat tərzinə təsirinin mexanizmlərini başa düşmək üçün təqlidə və yeniliyə olan ehtiyacları fərqləndirmək lazımdır. Bununla yanaşı, nəzərə almaq lazımdır ki, modanın mövcud olmasının səbəbi kütləvi xarakter daşıyaraq, cəmiyyətdə müəyyən davranış standartlarının yayılmasına və məşhurlaşmasına imkan verən məlumatlandırma prosesidir. Beləliklə, modanın sağlam həyat tərzinə təsiri mexanizmində mühüm amil kimi KİV-in nəzərdən keçirilməsinə imkan yaradır. Bundan əlavə, modanın müasir nəzəriyyələrinə əsasən onun cəmiyyətdəki fəaliyyətinin əsasını qeyri-fərqləndirmə prosesi təşkil edir.

Beləliklə, moda vasitəsilə sağlam həyat tərzinin inkişafı problemi ilk öncə, modanın sosial tənzimləmə mexanizmi kimi, eləcə də bu hadisənin geniş təbiəti və hərtərəfli təsiri ilə yaxından əlaqəli olan modanın universal xarakterinin başa düşülməsini və izahını tələb edir. İkincisi, modaya sağlam həyat tərzi amili kimi baxılması və onun inkişaf prosesinə modanın qeyri – utilitar nəzəriyyəsində rast gəlmək olar. Sözü gedən nəzəriyyəyə müraciət etdikdə modanın sağlam həyat tərzi ilə əlaqəsini açmaq mümkündür: burada moda sağlam həyat tərzinə təsir edən davranış növləri ilə ifadə olunur. Bu əlaqəni təhlil etmək üçün ilk öncə modanın, sağlam həyat tərzi və davranışın ümumi mahiyyətinə diqqət yetirmək lazımdır. Sağlam həyat tərzinin inkişafında moda amilinin öyrənilməsinin həlledici cəhəti modanın sağlam həyat tərzinə təsir mexanizminin müəyyən edilməsidir. Bu mexanizm, modanın təsir əlaqələrinin səbəbini və sağlam həyat tərzi sxemini aşağıdakı vasitələrlə həyata keçirməyə imkan verir: cəmiyyətdə daha effektiv fəaliyyət məqsədilə təqlid mexanizmlərinin istifadəsi; sağlam həyat tərzinin məzmununun yayılması və məşhurlaşması; fərdlərin sosial qrup xüsusiyyətlərinə əsasən sağlam həyat tərzi ilə əlaqəli dəbli davranış yönəlişliklərinin formalaşması [5].

Sözügedən problem, ilk növbədə, müəyyən bir sosial qrupla əlaqəli olaraq sağlam həyat tərzinin inkişafında moda amilinin nəzərdən keçirilməsinə aid olan bu problemin iki

aspektinin öyrənilməsini aktuallaşdırır. Burada bir sıra səbəbləri fərqləndirmək olar. Birinci səbəb gənclərin ölkənin gələcəyinin potensialı kimi xüsusi sosial qrupa aid edilməsidir. İkincisi, müasir cəmiyyətdə gənclərin sağlamlığa və sağlam həyat tərzinə münasibətin, eləcə də fəaliyyətin təzahürü ilə bağlı problemin yaranmasına xüsusi diqqət yetirir. Beləliklə, gənclər arasında sağlam həyat tərzinin inkişafı mühüm əhəmiyyət kəsb edir. Üçüncü səbəb isə, ən azı sosial və psixoloji cəhətdən qorunan bir qrup olaraq, gənclərin modaya güclü həssaslığı kimi qeyd olunur.

Öyrənilən problemin ikinci aspekti sağlam həyat tərzinin tənzimləyicisi kimi modanın fəaliyyətinin əsasını təşkil edən sosial təşkilatların fəaliyyətinə aiddir.

**Məqalənin aktuallığı.** Moda standartlaşmış kütləvi davranışın spesifik və son dərəcə dinamik forması olub, universal xarakter daşıyır. O, cəmiyyətdə üstünlük təşkil edən əhvalların, sürətlə dəyişən zövq və əyləncə vasitələrinin təsiri ilə, əsasən kortəbii surətdə əmələ gəlir.

Modanın həyat tərzi amili kimi qiymətləndirilməsi, eləcə də modanın sağlam həyat tərzinə təsiri mexanizminin üzə çıxarılması olduqca əhəmiyyətlidir. Burada əsas fikir modanın özünü həyat fəaliyyətinin ictimai tənzimlənmə mexanizmi kimi əks etdirməsi və sağlam həyat tərzinin həyat fəaliyyətinin üsulu olmasıdır. Bu baxımdan modanın həyat tərzi ilə qarşılıqlı əlaqəsinin psixoloji xüsusiyyətlərinin araşdırılması zəruridir.

**Məqalənin elmi yeniliyi.** Moda psixoloji, iqtisadi, tarixi-mədəni və sosial amillərin təsiri ilə formalaşan mürəkkəb sosial–psixoloji fenomen kimi səciyyələnir. Müxtəlif elmi mənbələrə əsaslanaraq modanın həyat tərzi amili kimi qiymətləndirilməsi, eləcə də modanın sağlam həyat tərzinə təsiri mexanizminin üzə çıxarılması mühüm əhəmiyyət kəsb edir.

**Məqalənin nəzəri və praktik əhəmiyyəti.** Bildiyimiz kimi hal–hazırki dövrə qədər Azərbaycan ədəbiyyatında moda psixologiyası səthi öyrənilmişdir. Bunu nəzərə alaraq demək olar ki, məqalə moda psixologiyası haqqında təsəvvürlərin daha da dərinləşməsi baxımından ciddi əhəmiyyət daşıyır. Modanın həyat tərzinə təsiri, həyat tərzinin amili kimi qiymətləndirilməsi, eləcə də modanın sağlam həyat tərzinə təsiri mexanizminin araşdırılması məqsədilə aparılan tədqiqat işlərinin nəticələri modanın insanların inkişaf prosesinə, insanın xarici görünüşünə görə özünü ifadə etməsinin, ümumilikdə insanların həyatlarına təsirinin öyrənilməsi baxımından müəyyən praktik biliklər verməkdə mühüm əhəmiyyət kəsb edir.

## Ədəbiyyat

1. Бутенко А. П. Образ жизни: проблемы и суждения. М., 1978.
2. Лисицын Ю. П. Образ жизни и здоровье населения. М., 1982.
3. Гофман А. Б. Мода и люди: новая теория моды и модного поведения. М., 1994.
4. Килошенко М. И. Психология моды: учеб.пособие. СПб., 2000.
5. T.İbrahimov. Müasirmodasənəti. Bakı: 2007.
6. N. R. Yunusov, Müasirmodanıninkişaftendensiyaları, Bakı: 2006.

**Д. Ибрагимова**

## Психологические особенности взаимодействия моды и образа жизни

## Резюме

Автор статьи рассказывает о моды и образ жизни, подчеркивая актуальность моды в жизни людей. Умение красиво одеваться это наука и искусство, которыми сможет овладеть каждый человек. Модно одеваться не зависит от материального благосостояния, а целиком зависит от вкуса.

В статье мода рассматривается как ключевой компонент современного человеческого общества, определяющая динамикуего развития. Также в статье просматриваются вопросы: мода, как оценивающий фактор образа жизни и выявления влияния моды на здоровый образ жизни.


**D. Ibrahimova**

## Psychological features of fashion and lifestyle interaction


## Summary

The author talks about the relationship between fashion and lifestyle in the article and note`s important role of fashion in the life of people. To be able to wear beautiful is an art and a science. To be able to wear luxury doesn`t depend on the material, but depends on pleasure.

The article considers the fashion industry as a key component of modern human society, which defines the dynamics of society's development. The article also analyzes the fashion structure of fashion as a lifestyle factor, as well as the implications of a fashion on a healthy lifestyle.


**Redaksiyaya daxil olub:** 02.07.2018